*Azərbaycan dili və ədəbiyyat tədrisi*
Xüsusi buraxılış / 2025 May / 48–55
https://doi.org/10.48445/v1478-7966-8001-r

# Azərbaycan dili: tarixi təşəkkülü və formalaşması

***Ədalət Abbasov* [1], *Həmzə Əliyev* [2]**

**XÜLASƏ**
*Azərbaycan dili xalqımızın milli dili, milli sərvətidir. Hər bir dilin tarixi həmin dilin daşıyıcısı olan xalqın, millətin tarixi ilə sıx bağlıdır. Buna görə də dilin təşəkkülü və formalaşması tarixini müəyyənləşdirərkən tarixə əsaslanmaq lazım gəlir. Mövzunun aktuallığını qoruyub saxlamaq üçün bu tarixi araşdırmanı iki istiqamətdə aparmaq daha məqsədəuyğun hesab edilir:*
*1. Dilin inkişaf tarixinin araşdırılması.*
*2. Dilin müxtəlif adlarla işlənmə tarixinin araşdırılması.*
*Müasir Azərbaycan ədəbi dili hazırkı inkişaf səviyyəsinə uzun mərhələlərdən keçərək çatmışdır. Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının dili də onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Azərbaycan ədəbi dilinin inkişaf tarixi aşağıdakı dövrlərə bölünür:*
*I dövr – Azərbaycan ədəbi dilinin formalaşması və tədricən inkişaf dövrü (V–XVIII əsrlər)*
*II dövr – Azərbaycan ədəbi dilinin tam sabitləşməsi dövrü (XIV əsr)*
*III dövr – Azərbaycan ədəbi dilinin inkişaf dövrü (XX əsrin əvvəllərindən bu günə kimi keçdiyi dövr). Dillərin tipoloji bölgüsü morfoloji quruluşa, geneoloji bölgüsü isə qohumluq mənşəyinə əsaslanır. Azərbaycan dili tipoloji təsnifə görə, iltisaqi, aqlütinativ dillərdəndir. Bu dil geneoloji bölgüyə əsasən türk dillərinin Oğuz qrupuna daxildir.*

**AÇAR SÖZLƏR**
*Azərbaycan dili, türk-tatar dili, Oğuz dilləri, tipoloji bölgü, geneoloji xüsusiyyət*

**MƏQALƏ TARİXÇƏSİ**
Göndərilib: 09.03.2025
Qəbul edilib: 12.04.2025

---

[1] Filologiya elmləri doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0000-0002-9704-1874 | abbasov-edalat@mail.ru
[2] Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0000-0003-2344-8388 | hemze.eliyev1965@mail.ru

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Teaching of Azerbaijani Language and Literature*
Special Issue / 2025 May / 48–55
https://doi.org/10.48445/v1478-7966-8001-r

# Azerbaijani Language: Historical Formation and Development

***Adalat Abbasov*** [1]***, Hamza Aliyev*** [2]

**ABSTRACT**
*The Azerbaijani language is the national treasure of our people. The history of each language is closely connected with the history of the people and nation that bear that language. Therefore, it is necessary to base ourselves on history when determining the history of the formation and formation of the language. In order to maintain the relevance of the topic, it is considered more appropriate to conduct this historical research in two directions:*
*1. Research into the history of the development of the language.*
*2. Research into the history of the use of the language under different names.*
*The modern Azerbaijani literary language has reached its current level of development after going through long stages. As in all nations, the language of the Azerbaijani people is one of the main factors determining its national existence. The history of the development of the Azerbaijani literary language is divided into the following periods:*
*I period – the period of formation and gradual development of the Azerbaijani literary language (V-XVIII centuries)*
*II period – the period of complete stabilization of the Azerbaijani literary language (XIV century)*
*III period – the period of development of the Azerbaijani literary language (the period from the beginning of the XX century to the present day). The typological division of languages is based on morphological structure, while the genealogical division is based on kinship origin. According to typological classification, the Azerbaijani language is an agglutinative language. According to genealogical division, this language belongs to the Oghuz group of Turkic languages.*

**KEYWORDS**
*Azerbaijani language, Turkic-Tatar language, Oghuz languages, typological division, genealogical characteristics*

**ARTICLE HISTORY**
Received: 09.03.2025
Accepted: 12.04.2025

---

[1] Doctor of Philological Sciences, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan. https://orcid.org/0000-0002-9704-1874 | abbasov-edalat@mail.ru
[2] Doctor of Philosophy in Pedagogy, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan. https://orcid.org/0000-0003-2344-8388 | hemze.eliyev1965@mail.ru

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

## Giriş

**Mövzunun aktuallığı**

Azərbaycan dili xalqımızın milli sərvətidir. Hər bir dilin tarixi həmin dilin daşıyıcısı olan xalqın, millətin tarixi ilə sıx bağlıdır. Azərbaycan dilinin tarixi də xalqımızın tarixi qədər qədimdir. Hər bir dil, hər şeydən əvvəl, müəyyən təkamül prosesinin məhsuludur. Buna görə də dilin təşəkkül və formalaşması tarixinin müəyyənləşdirilməsi mövzunun aktuallığını şərtləndirən əsas amillərdəndir. Bu tarixi araşdırmanı iki istiqamətdə aparmaq daha məqsədəuyğun hesab edilir:

1. Dilin inkişaf tarixinin araşdırılması.
2. Dilin müxtəlif adlarla işlənmə tarixinin araşdırılması.

Zəngin və qədim tarixə malik Azərbaycan xalqı milli xüsusiyyət və xarakter baxımından hər zaman, hər dövrdə humanist, sülhsevər və qəhrəman xalq kimi tanınmışdır. Dilimizin araşdırılması bu baxımdan da olduqca aktualdır.

**Mövzunun obyekti və predmeti**

Mövzunun əsas obyektini Azərbaycan dili və onun tarixi, predmetini isə bu dilin tarixinin araşdırılması üsullarının və metodlarının müəyyənləşdirilməsi təşkil edir. Xalqımız əsrlər boyu ətraf xalqlarla dostluq və qardaşlıq münasibətləri şəraitində yaşamışdır. Bununla yanaşı, Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində ayrı-ayrı işğalçıların təqib və təzyiqlərinə də məruz qalmışdır. *“Belə ki, VII əsrdən etibarən, xalqımız əvvəl ərəb işğalçıları, sonra isə fars, monqol və başqalarının işğalı ilə üzləşmişdir. İmperialist təbiətə malik işğalçıların məqsədi xalqımızı və onun milli varlığı olan dilini tarix səhnəsindən silmək olmuşdur”* (Əsgərov, 2008). Qürurla qeyd etmək lazımdır ki, xalqımız işğalçı toplumlara qarşı amansız mübarizə apararaq varlığını mühafizə etmiş, doğma dilinə sahib çıxmış, onu qoruyub saxlamışdır. Bu barədə Azərbaycan ədəbiyyatşünası və pedaqoqu Firidun bəy Köçərli demişdir: *“Dil millətin mənəvi diriliyidir. Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ananın südü bədənin mayası olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevməlidir”* (Həsənzadə, Abbasov, Zeynalov, 2024).

**Mövzunun elmi yeniliyi**

Dilimizin və onun adının tarixi haqqında verilən məlumatlar sistemli və ardıcıl tədqiq edilmişdir:

I. Azərbaycan dili qədim dövrlərdən etibarən bu torpağın sakinləri olan azsaylı xalqların (talış, tat, kürd, udin, xınalıq və b.) ortaq ünsiyyət vasitəsi olmuşdur. Bu ümumi kommunikativ funksionallıq (ünsiyyət vəzifəsi) dilimizin tarixi təcrübəsinə əsaslanır. *“Belə ki, Azərbaycan dili tarixi inkişaf prosesinin müəyyən mərhələsində (XIX əsrin ortalarına qədər) Qafqazda xalqlararası dil rolunu da oynamışdır. Dağıstan xalqları bu*

*dildən uzun müddət ümumi ünsiyyət vasitəsi kimi istifadə etmişlər”* (Həsənzadə, Pənahova, Abbasov, 2016).

II. Dilimizin tarixi kimi, onun adının işlənmə tarixi xüsusi araşdırma tələb edən məsələlərdən biri olaraq həmişə diqqəti cəlb etmişdir. Azərbaycanlıların ümumi ünsiyyət vasitəsi olan Azərbaycan dili tarixən hər zaman bugünkü adı ilə adlandırılmışdır. O, qədim dövrlərdən XIX əsrin 30-cu illərinədək əsasən türk dili adı ilə tanınmışdır. *“XIX əsrin əvvəllərindən və bir qədər də sonrakı dövrlərdə Azərbaycan dilinə aid əsərlərdə, çarın adına yazılan rəsmi sənədlərdə və ayrı-ayrı şəxslərin məktub və xatirələrində Azərbaycan dili müxtəlif adlarla adlandırılmışdır: “türk dili”, “türk-tatar dili”, “tatar dili”, “tatar-Azərbaycan dili”, “Qafqaz-tatar ləhcəsi”, “müsəlman-tatar dili”* və s. (Hüseynov, Qaracayeva, 2016).

Dilimiz 30-cu illərin ortalarından, dəqiq desək, 1936-cı ildən 90-cı illərin əvvəllərinə qədər ardıcıl olaraq “Azərbaycan dili”, 1992–1995-ci illər ərzində “türk dili” adlandırılmışdır. 12 noyabr 1995-ci il tarixində qəbul edilmiş Konstitusiyada referendum əsasında (ümumxalq səsverməsi) dilimizin adı yenidən Azərbaycan dili adlandırılmışdır. Həmin Konstitusiyanın 21-ci maddəsində göstərilir: “Azərbaycan dili Azərbaycanda xalqlararası ünsiyyət vasitəsidir. Eyni zamanda Azərbaycan dili dünya azərbaycanlılarının ümumi ünsiyyət vasitəsidir”. Bu və ya digər tarixi məsələlər ilk dəfə olaraq xronoloji aspektdən geniş araşdırılmışdır. Belə ümumi kommunikativ funksionallıq Azərbaycan dilinin tarixi təcrübəsinə əsaslanır. Azərbaycan dili olduqca zəngin, mükəmməl və qüdrətli bir dildir. Dünyanın istənilən dilindən bu dilə asanlıqla tərcümə etmək mümkündür. Bunun əksini də demək mümkündür. Azərbaycan ədiblərinin, görkəmli elm və mədəniyyət xadimlərinin əsərləri dünyanın ən nüfuzlu, beynəlmiləl dillərinə heç bir çətinlik olmadan tərcümə edilir (Şiriyev, 2014).

XIX əsrdə Avropada geniş yayılmış fransız dilini Azərbaycan dili ilə müqayisə etsək, dilimizin bütün Avrasiyada yüksək qiymətləndirildiyinin şahidi olarıq. Böyük rus şairi M. Y. Lermontov Azərbaycan dilinin Şərqdəki mövqeyini fransız dilinin Avropadakı nüfuzuna bərabər tutmuşdur. O demişdir: *“Tatarca (azərbaycanca) öyrənməyə başlamışam. Bu dil burada və ümumiyyətlə, Asiyada, fransız dili Avropada vacib olduğu qədər lazımdır. Təəssüf ki, indi öyrənib başa çatdıra bilməyəcəm, sonra lazım ola bilərdi”* (Xudiyev, 2014).

**Azərbaycan ədəbi dilinin inkişaf dövrləri**

Müasir Azərbaycan ədəbi dili hazırkı inkişaf mərhələsinə birdən-birə gəlib çıxmamışdır. Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmış,

xalqın ən ağır günlərində onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. *“Azərbaycan dili türk mənşəli ümumxalq canlı danışıq dili zəminində əmələ gəlib şifahi ədəbi dilə çevrilənədək və sonradan bu əsasda Azərbaycan ədəbi dilinin yazılı qolu təşəkkül tapana qədər yüz illər boyunca mürəkkəb tarixi inkişaf yolu keçmişdir”* (Qulamoğlu, 2019).

Azərbaycan ədəbi dilinin inkişaf tarixi aşağıdakı dövrlərə bölünür:

I dövr – Azərbaycan ədəbi dilinin formalaşması və tədricən inkişaf dövrü (V–XVIII əsrlər).

II dövr – Azərbaycan ədəbi dilinin tam sabitləşməsi dövrü (XIX əsr).

III dövr – Azərbaycan ədəbi dilinin geniş inkişaf yolu keçməsi dövrü (XX əsrin əvvəllindən bu günə kimi keçdiyi dövr). III dövr aşağıdakı mərhələlərdən keçmişdir:

1-ci mərhələ: 1901–1920-ci illər;

2-ci mərhələ: 1921–1950-ci illər;

3-cü mərhələ: 1951–1980-ci illər;

4-cü mərhələ: 1981–1990-cı illər;

5-ci mərhələ: 1991-ci ildən indiyə qədər.

## Metodlar

Mövzunun araşdırılmasında dilçiliyin ənənəvi tədqiqat metodlarından – təsviri, müşahidə, tarixi-müqayisəli metodlardan istifadə edilmişdir. Mövzunun tədqiqində Azərbaycan dilinin geneoloji və tipoloji xüsusiyyətləri Azərbaycan dili ümumtürk dilinin diferensiasiyası nəticəsində təşəkkül tapmışdır. Bu o deməkdir ki, Azərbaycan dili ümumtürk dilinin varisidir. Demək, dilimiz istər tarixi formalaşma prosesi, istərsə də geneoloji və tipoloji baxımdan türk dillərinin ayrılmaz bir qoludur. Dillərin tipoloji bölgüsü morfoloji quruluşa, geneoloji bölgüsü isə qohumluq mənşəyinə əsaslanır. Mənşə cəhətdən eyni kökə malik olan dillər qohum dillər sayılır, qohum dillər isə dil ailəsini təşkil edir. *“Müasir dünyada 6 minə qədər canlı dil mövcud olmasına baxmayaraq, bu dillər quruluşu, milli xüsusiyyətləri, linqvistik əlamətləri baxımından fərqlənir”* (Məmmədli, 2021).

Bir məsələni də qeyd etmək lazımdır ki, genetik meyarlar baxımından mənşəcə bir-birinə yaxın olan (qohum) dillər də kəmiyyətcə çoxdur. İndiyə qədər dilçilik elmində 20-dən artıq dil ailəsi müəyyən edilmişdir. Dil ailələri içərisində sayca ən böyüyü 36 dildən ibarət olan Altay dilləridir. Altay dillər ailəsinə aşağıdakı dil qrupları daxildir:

1. Türk dilləri qrupu – 23 dil,
2. Monqol dillər qrupu – 3 dil,
3. Tunquş dillər qrupu – 3 dil,

4. Mancur dilləri qrupu – 5 dil,
5. Koreya dili,
6. Yapon dili.

Altay dillər ailəsini təşkil edən dillərdən ən böyüyü Türk dilləri qrupudur.

Türk dilləri qrupu 5 yarımqrupa bölünür:

1. Oğuz dilləri yarımqrupu (4 dil),
2. Qıpçaq dilləri yarımqrupu (5 dil),
3. Bulqar dilləri yarımqrupu (6 dil),
4. Qarlıq dilləri yarımqrupu (3 dil),
5. Tukyuy dilləri yarımqrupu (5 dil).

Azərbaycan dili tipoloji təsnifə görə iltisaqi (aqlütinativ) dillərdəndir.

**Tədqiqat zamanı qarşıya qoyulan əsas problemlər**

Araşdırma zamanı qarşıya qoyulan mühüm problemlərdən biri də dilimizin quruluşunu müxtəlif səviyyələrdə müəyyənləşdirilməsidir. Bu dil geneoloji bölgüyə əsasən, türk dillərinin Oğuz qrupuna daxildir. Azərbaycan dili ilə yanaşı, türk, türkmən və qaqauz dilləri də Oğuz qrupuna aiddir. Tipoloji cəhət, yəni morfoloji quruluş baxımından Azərbaycan dilində sözün kökü bəzi istisnalar nəzərə alınmazsa, əsasən, sabit qalır, dəyişmir, şəkilçi, bir qayda olaraq, kökdən sonra işlənir" (Məcidli, 2021). Həmçinin bəzi sözlər istisna olmaqla (natəmiz, nakişi, nadinc), əsl Azərbaycan sözləri ön şəkilçi qəbul etmir.

**Nəticələr**

Tədqiqat zamanı alınan nəticələri aşağıdakı şəkildə ümumiləşdirmək mümkündür:

1) Azərbaycan xalqı qədim dövrlərədək Qafqaz regionunda yaşayan müxtəlif xalqlarla – indiki Dağıstan dillərində danışan tayfalarla (qədimdə alban tayfaları adlandırılmışlar), gürcü və farsdilli xalqlarla birgə yaşamışdır.

2) Bu tarixi şərait səbəbindən aparılan tədqiqatlar əsasında Azərbaycan dilçiliyində bu coğrafi ərazidə 3 dil ailəsinin mövcud olması müəyyən edilmişdir.

Bunlar aşağıdakılardan ibarətdir:

a) Türk dil ailəsi – bu qrupa daxil olanlar aborigen (yerli) əhali olduğu üçün kəmiyyətcə üstünlük təşkil edir.

b) İber-Qafqaz dil ailəsi – qədim alban, ləzgi, avar, saxur, udin, qrız, buduq, xınalıq, yengiloy, rutul və digər azsaylı xalqlar bu dil ailəsini təşkil edirlər.

c) Fars dil ailəsi – talış, tat, kürd dilləri bu dil ailəsinə daxildir. XVI əsrdən etibarən, "Azərbaycan dili milli dil kimi formalaşmış və ilk dəfə Ş. İ. Xətainin qurduğu (1501) Sə-

fəvi dövləti iqtidarı zamanı müstəqil dövlət dili statusu əldə etmək şansına malik oldu" (Qulamoğlu, 2019).

**Müzakirə**

Dil öz daxili qanunları əsasında inkişaf edir, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir. Rəsmi dil statusu almış Azərbaycan dilinin sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Zaman keçdikcə dövrün tələblərinə uyğun olaraq, Azərbaycan dilinin istifadə dairəsi daha da genişlənmiş, onun tətbiqi və inkişafının elmi əsaslar üzərində qurulması zərurəti meydana çıxmışdır. Ona görə də son dövrlərdə Azərbaycan dilçilik elminin ayrı-ayrı sahələri üzrə aparılan araşdırmalar intensivləşmiş və yeni aspektlər müəyyənləşdirilmişdir. Müasir Azərbaycan dili bu gün də dərin fikirləri ən incə çalarlarınadək aydın bir şəkildə ifadə etmək qüdrətinə malikdir. Hazırda Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin leksik fondu, geniş ifadə imkanları vardır. 30 sentyabr 2002-ci il dövlətçilik tariximizdə olduqca əhəmiyyətli bir gündür. Həmin tarixdə ümummilli lider Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun təsdiq olunmuşdur. Dilimizin kütləviliyi, inkişafı, qayda və tələbləri bu sənəddə geniş şəkildə öz əksini tapmışdır. Qanunda göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini müstəqil dövlətçiliyin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsinin qayğısına qalır, dünya azərbaycanlılarının milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır.

**Nəticə**

Dövlət dilini bilmək hər bir Azərbaycan Respublikası vətəndaşının mənəvi borcudur. Azərbaycan Respublikası dövlət dilinin işlənməsi, qorunması və inkişafını təmin edir. Dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarında, dövlət qurumlarında, siyasi partiyalarda, qeyri-hökumət təşkilatlarında (ictimai birlik və fondlarda), onların nümayəndəliklərində və filiallarında, idarələrdə dövlət dilinin tətbiqi ilə bağlı fəaliyyət bu qanuna uyğun olaraq həyata keçirilir, o cümlədən kargüzarlıq (dəftərxana) işləri dövlət dilində icra edilir. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla və xarici dövlətlərin diplomatik nümayəndəlikləri ilə yazışmalar Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq xarici dildə – Azərbaycan dilinə tərcümə olunmaq şərti ilə aparıla bilər.

**Ədəbiyyat**

1. Adilov, M. (2020). *Seçilmiş əsərləri*. IX c. Elm və təhsil.
2. Əsgərov, M. (2018). Diskurs, nitq və mətnin linqvopsixoloji mahiyyəti və qarşılıqlı transformasiya potensialı, *AMEA Nəsimi adına Dilçilik İnstitutunun əsərləri*, 1.
3. Həsənzadə, N., Abbasov, Ə., Zeynalova, A. (2024). *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya*. MAA.
4. Həsənzadə, N., Pənahova, G., Abbasov, Ə. (2016). *Azərbaycan dili və nitq mədəniyyəti*. Ecoprint.
5. Hüseynov, S., Qaracayeva, E. (2016). *Azərbaycan dili və nitq mədəniyyəti*. Elm və təhsil.
6. Xudiyev, N. (2014). *Heydər Əliyev və Azərbaycan dili*. Elm və təhsil.
7. Qulamoğlu, N. (2019). *Müasir Azərbaycan dili punktuasiyasının bəzi problemləri*. Elm və təhsil.
8. Məcidli, S. (*2021). İnternet hüququ və etikası.* Azərbaycan Universiteti.
9. Məmmədli, N. (2021). *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya* (dərslik). Elm və təhsil.
10. Şiriyev, F. (2014). *Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika*. Nurlar.